# "BU DÜNYANIN ŞAİRİ"

## Söhbət Ağacəfər Həsənlidən gedir




**Artıq oxuculara məlum olduğu kimi, professor, filologiya elmləri doktoru, tanınmış tənqidçi Vaqif Yusiflinin qələmənin məhsulu olan kitablar barəsində fikirlərimizi onlarla bölüşməyə çalışmışıq. Belə ki, öncə Elçin İsgəndərzadə, sonra da dəyərli alim Adil Cəmil barəsində tənqidçi Vaqif Yusiflinin dəyərli araşdırmalarının məhsulu olan monoqrafiya-kitabları həqiqətən də ədəbiyyatımız üçün, ədəbiyyatın bugünkü durumunu təqdim etmək üçün çox önəmli bir vəsaitdi. Bu mənada Vaqif Yusiflinin həmin silsilədən olan "Bu dünyanın şairi" Ağacəfər Həsənliyə həsr olunmuş kitabı da iki məqamda diqqəti çəkir. Birinci, müəllif bu kitabı ilə Azərbaycan oxucusuna şair Ağacəfər Həsənlini daha yaxından, daha geniş planda təqdim edir. İkincisi də bu kitab Ağacəfər həsənlinin 60 yaşına bir tənqidçi, bir söz adamının hədiyyəsidir. Deməli, hər iki məqamda qazanan oxucu və bir də Ağacəfər Həsənli olur. Ona görə ki, bu kitab onun yubileyini xatırlatmaqla bahəm həm də onun sözlərinin qatlarını, fikirlərinin müxtəlif çalarlarını bir növü geniş müstəvidə böyük ekranda hər kəsə göstərir.**

Bəli, bir oxucu marağı ilə izlədiyim "Adiloğlu" nəşriyyatı tərəfindən çap olunmuş, redaktoru filologiya üzrə fəlsəfə doktoru Elnarə Akimova olan "Bu dünyanın şairi" kitabını həvəslə oxudum. Etiraf edim ki, kitabı tez oxuyuboxuyub başa çıxmağımda "Ədalət" qəzeti də köməyimə çatdı. Çünki kitabdakı bir çox məqalələr zaman-zaman "Ədalət"in səhifələrində işıq üzü görmüşdü və mən də təbii ki, bir qəzetçi kimi həmin yazılarla tanış idim. Amma buna baxmayaraq, aradakı zaman məsafəsi Vaqif Yusiflinin 10-12 il bundan öncə söylədiyi fikirlərin yenə öz ilkinliyində, öz təravətində, öz səmimiyyətində qaldığını, üstəlik, o fikirlərin bu günlə səsləşmə baxımından reallağını büruzə verdi. bir oxucu olaraq yaradıcılığına azçox bələd olduğum Ağacəfər Həsənlinin poeziyası barəsində tənqidçi fikirlərinin çalarlarını bir daha gördüm və dərk etdim.

Bəli, kifayət qədər sanballı bir elmi araşdırmanın nəticəsi olan bu kitabda Ağacəfər Həsənlinin ilk qələm təcrübəsindən bugünə qədər bir kənd şairindən Azərbaycan coğrafiyasının özündə tərənnüm etməyi bacaran bir şairə qədər olan yol zaman-zaman araşdırılıb, fəsil-fəsil oxucu qarşısında sərgilənibdi. Təbii ki, bu da tənqidçi professorun öz qəhrəmanına indiki anda Ağacəfər Həsənli poeziyasına yaxından bələdçiliyinin, onun mahiyyətinə varmaq peşəkarlığının bir nümunəsidir. Digər tərəfdən burda bir gerçək də özünü göstərir. O da 70-ci illər ədəbi nəslinin nümayəndələrinin Vaqif Yusifli və onunla həmyaşıd olan tənqidçilərimizin, ədəbiyyatçılarımızın gözü önündə püxtələşməsidi.

Bu kitabın önəmli cəhətlərindən biri də zənnimcə tənqidçi ilə müəllifin dialoqudu. Necə deyərlər, təkcə şeir nümunələri ilə yox, publisist düşüncələri ilə də oxucunu tanış etmək, onları qarşılaşdırmaq, onları bir sözün işığına toplamaqdı.

**Bəli, "Bu dünyanın şairi" olan Ağacəfər Həsənlinin poeziya dünyası, söz yolu və söz ömrü kimi rəngarəngiliyi ilə diqqəti çəkir və kitabı oxucunun maraq dünyasına daxil edir. Düşünürəm ki, professor, filologiya elmləri doktoru Vaqif Yusiflinin yaradıcılığının uğurlu məqamlarından biri də elə bu kitabın özüdü.**

**Əbülfət MƏDƏTOĞLU**